# Ömür vəfa qılsaydı...

**Qələm dostlarımızdan birinin sözüdü: "Hər bir insanın ölümü həmişə gözlənilməzdir və əgər bu ölüm uzun sürən ağır xəstəliklə əlaqədar deyilsə, o, daha faciəli təsir bağışlayır..."**

Bəli, təhsilimizin fədailərindən olan Alış müəllimin də düz üç il öncə soyuq dekabrda qəfil sıralarımızı tərk etməsi illər ötdükcə qəlblərə heç soyuqluq gətirmədi, əksinə doğmalara, yaxınlara hər dəfə anım günlərini daha faciəli, unudulmaz təsirlərlə ötüşdü...

Şəxsi mülahizələrimizə gəlincə, hər dəfə belə insanlar haqqında düşünərkən Tanrı qanunları ilə barışmalı olsaq da, istər-istəməz onu ömrün boyu unuda bilmir, xatirələrində yaşadırsan. Çətin anlarında, sevincli günlərində qəlbin onu istəyir, sanki bir nida gəlir gözlərin önünə - kaş ki, onunla qəlbimdəkiləri yenə də bölüşə biləydim, heç olmasa bircə dəfə üzünü görüb səsini eşidəydim. O, da çəkdiyi illərin əzab-əziyyətinin hədər olmadığını duyaydı, könül rahatlığı tapaydı biz sarıdan... Amma bu bir həyat reallığıdır, o yoxluq daim hiss olunur, bax, həmin boşluğun nəyləsə, kimləsə doldurula bilməməsi nisgilə çevrilir zaman-zaman. Özünə təsəlli kimi bunları qəlbində o taya-bu taya varaqlayırsan həmişə - O əvəzsiz insanın yolunu davam etdirib arzularını çiçəkləndirmək, faydalı əməllərinlə ruhunu şad etmək!. Və bir də köhnə yaddaş lentində onu şirin xatirələrlə təkrar yada salır, gecəli-gündüzlü ailəyə, övlada qayğısı, cəmiyyət üçün xeyirxah əməllərindən ətrafındakılara danışmaqla qəlbinə toxtaqlıq gətirə bilirsən...

Bu gün haqqında söhbət açıb şirin xatirələrlə doğum tarixini andığımız sadə, təvazökar, həssas insan, gözəl pedaqoq, bütün şüurlu ömrünü çalışdığı rayonun təhsilinə, gələcək nəslin təlim-tərbiyəsinə həsr etmiş, işığından hamıya pay düşən böyük ziyalı Alış Teymur oğlu İbayevdir.

Mərhumun keçdiyi ömür yolu haqqında qısa bir arayışa nəzər salaq:

Alış Teymur oğlu İbayev 1947-ci ildə noyabr ayının 19-da Biləsuvar rayonunun İsmətli kəndində anadan olub. Ağayrı kənd orta məktəbini (1955-1966) bitirdikdən sonra elə həmin il ADPU-nun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. İlk pedoqoji fəaliyyətinə 1967-ci ildən rayonun Günəşli kəndindən başlamışdır. 1970-1972-ci illərdə sovet ordu sıralarında hərbi xidmətini çəkdikdən sonra fəaliyyətini Günəşli kəndində davam etdirmişdir.

Qısa müddətdə rayon Pedaqoji Şurasının rəğbətini qazandığı üçün çalışdığı Günəşli kənd orta məktəbin direktoru vəzifəsinə irəli çəkilir. 1979-cu ildən 2004-cü ilədək doğma kəndi İsmətlidə məktəb direktoru kimi fəaliyyət göstərmişdir. 2004-cü ildən ömrünün sonuna kimi şəhid V.Rüstəmov adına Ağayrı kənd tam orta məktəbinin direktoru olmuşdur.

....Hə, acı da olsa deyəcəyik, bu il o, yenə də yeni dərs ilində öz həmkarlarının, sevimli şagirdlərinin yanında olmadı, hər il qeyd edilən "Müəllim günü"ndə uzun illər rəhbərlik etdiyi məktəbin müəllim kollektivini təbrik edə bilmədi... Bu gün qəlblərdə yaşayan əziz insan haqqında doğmaları, yetirmələri, həmkarları ürək sözlərini bizimlə belə bölüşürlər.

**Fəlsəfə doktoru Nemət Alış oğlu İbayevin atası haqqında dediklərindən:**

-Ailədə ATAYA böyük önəm verən bir insan kimi ATAMIN yoxluğu mənə mənəvi əzab verir. Çox fikirləşirəm, nə edəcəyimi bilmirəm. Düşündükcə düşünürəm, xəyallara dalıram, xatirələr yadıma düşür və ATAMI heç vaxt görməyəcəyəm, bir də səsini eşitməyəcəyəm fikirləri məni narahat edir, darıxıram, səsini eşitmək istəyirəm, amma eşidə bilmirəm. Evdən çölə çıxanda "yaxşı yol" deyişini eşitmək - bütün bunların hamısı üçün darıxdım. Sənsizlik heç də yaraşmadı mənə. Sən ki bilirdin ölümü heç bir zaman qəbul etmədiyimi. Sən ki bilirdin, ata! Bəs sənsizliyi necə qəbul etsin sənin bu boynubükük, balan?!.

ƏZİZ ATAM, artıq bizimlə cismən deyilsən, lakin ruhən qəlbimizdə döyünən ürək, gözlərimizdəki mənalı ifadəsən. Sən bizimlə olmasan da bizlər, sənin övladların sənin layiqli davamçıların olmağa çalışırıq. ATA, sənin üçün hər şey etməyə, hətta ürəyimizi çıxarıb verməyə hazır olduğumuz vaxt sənə heç nə edə bilmədik, bəli, heç nə!!!

Etdiyimiz təkcə bir şey, səni son mənzilə aparıb torpağa əmanət verməyimiz oldu... Rahat uyu atacan, rahat uyu, sənsizlik nə qədər acı, dözülməz olsa da, arzuların çiçəkləyir- övladlarına sağlığında nələri diləmişdinsə həyata keçir, çalışdığımız şərəfli peşələrimizlə cəmiyyət üçün, el-oba üçün gərəkli olmaqdan ötəri əlimizdən gələni əsirgəmirik. Ruhun daim şad olsun, ATA!!!.

**Kamal Teymurov, təqaüddə olan "Tərəqqi" medallı qocaman pedaqoq:**

-Alış İbayev son dərəcə təvazökar, səmimi və yüksək insani keyfiyyətlərə malik ziyalı idi. Bütün bu hörmət və məhəbbəti, əməli fəaliyyəti, səmimi rəftarı ilə qazanmışdır desəm, yanılmaram. Ölümündən 3 ilə yaxın bir dövr keçməsinə baxmayaraq, onun şaqraq gülüşü, dost atmacaları, işindəki tələbkarlığı heç zaman xəyalımdan silinmir. Çünki o, əvəzsiz insanlığı ilə hər birimizin qəlbində elə öz şəxsiyyəti boyda bir qala qurmuşdu.

Doğru buyrulur ki, yüksək əməl sahibi heç vaxt unudulmur. Alış İbayev də beləcə yaxşı əməllər sahibi idi. Heyf ki, aramızdan vaxtsız getdi...

**Firudin Hüseynov, Respublikanın əməkdar müəllimi:**

-Uzun illər yoldaşlıq etdiyim əziz dostum, şəxsiyyətinə böyük dəyər verdiyim insan, əsl təhsil fədaisi, böyük ziyalı, gözəl ailə başçısı Alış müəllimin əziz xatirəsi onu sevən bir şəxs kimi mənim üçün də çox qiymətlidir. Nə qədər ağır olsa da bu gün biz onun yubileyini - 70 yaşını onsuz qeyd edəcəyik. Allah rəhmət eləsin, qəbri nurla dolsun, onun işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır. Ulu Tanrı övladlarını, nəvələrini, istəyənlərini qorusun!

**Fəday Əliyev, İsmətli kənd tam orta məktəbin direktor müavini:**

Qədim dövrün əxlaq peyğəmbəri sayılan Sokratdan soruşurlar: -İ nsanda ən çox nəyi qiymətləndirirsiniz? O demişdir: - İnsaniyyəti. Bəs insaniyyət dedikdə, nəyi başa düşürsən? - dedikdə o, insana layiq keyfiyyətləri cavabını vermişdir.

Bir gənc, dahi Nizamiyə: "ayın işığı, gülün ətri var, bəs insanın nəyi var?" sualını vermişdir. Böyük Nizami: "insanlığı, xeyirxahlığı var" cavabını söyləyir.

Məhz Alış müəllim, belə yüksək insanlığı, xeyirxahlığı olan məktəb rəhbəri idi. Məni o, rəhbər təyin olunduğu ilk ildən dəyərləndirdi, özünə müavin təyin etdi. Heç vaxt təkbaşına iş görməzdi. Bir müavin kimi həmişə mənimlə məsləhətləşərdi. Pedoqoji şurada müzakirə olunacaq məsələni əvvəlcədən bir yerdə müəyyənləşdirərdik. Hər hansı bir pedoqoji işçiyə işindəki nöqsanlara görə töhmət yazmamaqdan ötəri: "Fəday müəllim məsuliyyəti öz üzərinə götürdüyünə



görə sizə töhmət vermirəm, nöqsanlarınızı tez aradan qaldırın...", söyləyərdi.

Alış müəllim yaxşı rəhbər, gözəl ailə başçısı olduğu qədər, rəhbərlik etdiyi kollektivdə də əsl ağsaqqal idi. Pedoqoji heyətin hər bir üzvünün xeyir və şər işlərində hər kəsin iştirakını təmin edərdi. Həddindən artıq əli açıq, son manatına qədər yoldaş yolunda xərcləməyi bacaran insan idi. Qəlbində kinə, küdurətə yer qoymazdı, həmişə barışdırıcı mövqedən çıxış edərdi. Rəhbər olmasına baxmayaraq, ona dərs demiş ağsaqqal müəllimlərin yanında icazəsiz danışmazdı. Pedoqoji işçilərin 50, 60, 70 illik yubileylərinin keçirilməsi ənənəvi hal almışdı.

Alış müəllim övladlarına qarşı çox həssas idi, Neməti daha çox istərdi: - Fəday müəllim, Nemətə xüsusi diqqət ayır, o, yaxşı oxumalıdır - deyə, hər dəfə xahiş edərdi. Ruhun şad olsun! Onu sevən, ona dəyər verən insanların qəlbində nə qədər bizlər varıq onun xatirələri yaşayacaq.

**Bəhruz Nəbili, Ağayrı kənd tam orta məktəbin direktoru:**

- Doğrusu, Alış müəllim haqqında söz demək, hər hansı bir fikri ifadə etmək mənim üçün çox çətindir. Alış müəllimin mənim də bir gənc müəllim kimi formalaşmağımda böyük xidmətləri var. Məni məhz ilk dəfə müəllim kimi 2002-ci ildə öz işlədiyi-direktoru olduğu İsmətli kənd tam orta məktəbinə o, goturub. Müəllimlik peşəsinin - pedoqoji sahənin özünə məxsus özəlliklərini məhz ondan öyrənmişəm və bu gün əldə etdiyim uğurlara görə birmənalı olaraq Alış müəllimə borcluyam. Həm də bu gün qürur hissi keçirirəm ki, məhz onun ömrünün sonunadək direktoru olduğu Ağayrı kənd tam orta məktəbinə Alış müəllimin yetirməsi və davamçısı olaraq mən rəhbərlik edirəm.

Məktəbin bütün pedoqoji kollektivi Alış müəllimi həmişə hörmətlə anır. Keçirilən bir çox məktəbdaxili tədbirlərimizdə onun adı, müstəsna fəaliyyəti xüsusi vurğulanır. Onun qoyduğu nizam-intizam, tələb və səmimiyyət kollektivdə bu gün də bir meyar kimi qəbul olunur. Ruhu şad olsun!!!

**Samir Qurbanov:**

-Böyük kimi mənim də məsləhət yerim idi Alış müəllim. Kiçiklə də, böyüklə də dost olmaq bacarığı onun qəlb saflığından, kamil insanlığından irəli gəlirdi. Çünki ailəsində də belə idi - fəxr etdiyi tərbiyəli, ziyalı övladları ilə də dost idi, o. Övlad qəlbində əsl ata-əsl dost abidəsi ucaltmağı bacarmışdı sağlığında. İstəmirdi kimsə ondan ötrü əziyyət çəksin. Kiçik dostu olaraq bu xatirə də yaxşı yadımda qalacaq ki, bayram sabahlarımızı onun təbrik zəngləri ilə açmışam neçə illər. Bir sözlə, övlad sevgisi olub ətrafında ünsiyyət qurduğu insanlara, gənclərə unudulmaz pedaqoqun. Alış müəllim kimi bir ağsaqqal şəxsiyyətlə sağlığında dostluğumdan mən də xoşbəxt sanıram özümü. Amma heyf ki, 2014-cü ilin dekabrın ilk günlərində hal-əhval tutub, məktəbindəki yeniliklər, şagird uğurları ilə bağlı apardığımız müsahibəmiz son əlaqəmiz, son söhbətimiz - vida sözü imiş, sən demə...

Bəli, cəmiyyət üçün onlarla yetirdiyi aktiv ziyalılarla yanaşı, 3 oğul, 4 qız da öz ocağında, ailəsində böyüdüb, tərbiyə, təhsil verib, xalqın xidmətində durmağı öyrədib onlara. Qızları - Süsən, Tünzalə, Xuraman, Gülnarə hər biri ali təhsillidir, pedoqoji sahədə çalışırlar. Rüfət və Rəsul mübariz bir keşikdə - polis orqanlarında şərəflə xidmət edirlər. Nemət isə atasının peşəsinin davamçısıdır. Sumqayıt Dövlət Universitetinin müəllimidir. Nemət müəllim, sağlığında atasına verdiyi bir vədi onun ruhu qarşısında öz elmi uğuru ilə - filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə nail olmaqla yerinə yetirdi. Cəmiyyətə yararlı övladlar yetişdirmək ata xoşbəxtliyi deyilmi, əziz oxucu?!

Şair demişkən:

**...Yaxşı oğul, yaxşı ata naxşıdır,**
**Bir sevincin, bir kədərin baxşıdır.**
**Bu dünyada hər yaxşıdan, yaxşıdır,**
**Yaxşı oğul, yaxşı ata yerində!..**

**... Ömür vəfa qılsaydı bu ilin noyabrın 19-da 70 yaşını-yubileyini bayram edəcəkdik. Amma bilirəm, ruhun şaddır, Alış müəllim, gözün arxada qalmayıb. Sinən üstündə açan çiçəklər belə hüzurundan xəbər verir. Kiçik övladın Rəsul sənin vəfatından üç gün sonra dünyaya göz açan ilk oğul övladına sənin adını qoyub - indi ailə, ürəklərinin başında gəzdirdikləri balaca Alışdan bahar küləyi tək sənin qoxunu-ətrini almağa çalışır, təskinlik üçün ən böyük təsəlli yeri bilirlər özlərinə. Hə, bir xəbəri də deyim, əziz ağsaqqal dostum, qoy, ruhuna agah olsun bu şad xəbər də: - ocağının işığı bundan sonra daha gur yanacaq - Rəsulun ikinci oğul övladı Amin də sənin doğum tarixində, bir payız gününoyabrın 19-da göz açıb bu işıqlı dünyaya... İndi bu doğma təqvim Almaz nənənin, övladlarının, doğmalarının sevə-sevə, min bir məhəbbətlə andığı, xatırladığı tarixə çevrilib...**

**Samir Qurbanov**